# Qələbəni qanı ilə yazanlar

**Azərbaycan Ordusunun böyük uğurlar qazandığı Aprel döyüşlərinin 8-ci ildönümü ilə əlaqədar bu günlərdə müəssisə və təşkilatlarda tədbirlər keçirilir. Tədbirlərdə zabit və əsgərlərimizin döyüşlərdə qazandığı qələbədən ətraflı danışılır.**





Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin X.Natəvan adına 4 nömrəli kitabxana filialında Aprel döyüşlərinə həsr olunmuş "Qələbəni qanı ilə yazanlar" mövzusunda tədbir keçirilib.

Aparıcısı Zərəngiz Mansurova tadbiri açıq elan etdikdən sonra torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. İştirakçılar Azərbaycan Respublikasının Dövlət himnini oxuyublar.

Kitabxana filialının müdiri Aynur Babayeva çıxışında bildirib ki, Aprel döyüşləri dövlətimizin və ordumuzun gücünü, xalqımızın birliyini və həmrəyliyini nümayiş etdirdi. Bu qələbə igid əsgərlərimizin işğal olunan torpaqlarımızı azad etməyə tam hazır və qadir olduğunu bir daha dünyaya göstərdi. Ermənі təxribatına cavab olaraq aparılan qısamüddətli hərbi əməliyyatlar zamanı düşmənin onlarla canlı qüvvəsi, xeyli sayda silah və hərbi texnikası məhv edildi. Bunun nəticəsində minlərlə hektar ərazi işğalçılardan təmizləndi. Aprel döyüşlərində qazanılan qələbə Ermənistan ordusunun tamamilə məhv olunacağını sübut etdi. Döyüşlər onu da göstərdi ki, belə cəsur zabit və əsgərləri olan bir xalqın torpağı işğalda qala bilməz. Aprel döyüşlərindəki qalibiyyət, üstünlük 44 günlük Vətən müharibəsində qazanılan şanlı tarixi Zəfər üçün böyük zəmin yaratdı.

Tədbirdə qazilər Yaşar Kərimov, Ruslan Abbasov, Ədhəm Məmmədov, Seyfulla Niftəliyev, Ramiz Yusifov və başqaları çıxış edərək iştirakçısı olduqları döyüşlərdən danışdılar. Zabit və əsgərlərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqdan ətraflı bəhs etdilər.

Bakı şəhəri 225 nömrəli orta məktəb şagirdlərinin iştirakı ilə ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 6 aprel, №71.-S.11.